# HEYDƏR ƏLİYEV: MİLLİ TARİXİ YADDAŞ VƏ XALQ ƏDƏBİYYATI

**Sevinc Əliyeva**

*AMEA-nın Folklor İnstitutu, Bakı*
*sevinc.k.aliyeva@gmail.com*

Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqının tarixi, ədəbiyyatı və taleyi ilə o qədər qaynayıb-qarışıb ki, ondan söhbət açarkən əslində xalqın tarixindən, ədəbiyyatından danışmış oluruq. Tarixi mənbələrdən və arxiv materiallarından da əldə etdiyimiz məlumatlara əsasən, Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 70-ci illərdə Azərbaycan ədəbiyyatının inkişafı üçün həm siyasi-ideoloji, həm də mənəvi şərait yaradıldı. Məhz dövlət qayğısı sayəsində yazıçılarımızın, şairlərimizin, ümumən ədəbiyyatşünaslarımızın məhsuldar yaradıcılığı da bu işin nəticəsi olaraq tarixə həkk olundu. Bu illərdə Azərbaycan mətbuatı da xeyli inkişaf etmişdi. Çünki tarixin müxtəlif dönəmlərində Azərbaycanda da ədəbiyyatımız ərəb, fars, müəyyən dövrlərdə isə rus dilində yazılmışdır. Azərbaycan ədəbiyyatı və tarixinin, doğma dilimizin hər zaman xalqın qayğısına ehtiyacı olduğu qədər, dövlətin də diqqətinə ehtiyacı olmuşdur. Çünki fərqli ictimai-siyasi quruluşlarda Azərbaycan dilinə və ədəbiyyatına rəsmi münasibət fərqli olmuşdur.

Bəli, Heydər Əliyev hakimiyyətinin həm sovet, həm də müstəqillik dövründə Azərbaycan dilini, ədəbiyyatını daim dəyərləndirmişdir. Azərbaycan xalqı da öz növbəsində dilini, ədəbiyyatını, tarix və etnoqrafiyasını, ümumən arxivini qorumuş, inkişaf etdirmişdi. Axı Azərbaycan dilinin qorunması həm də Azəraycan xalqının var olması, yaşamağı deməkdir. Eləcə də "Qobustan" incəsənət almanaxı, "Ulduz" və 1970-ci ildən çap olunan "Sovet Türkologiyası" jurnalları xalqın özünüdərk, milli dirçəliş prosesində mühüm rol oynayırdı. Bütün bunların nəticəsi idi ki, 70-80 ci illər ən yeni dövr – Azərbaycan ədəbiyyatı

tarixinə yüksəliş, inkişaf illəri kimi daxil olub. Məhz bu illərdə Azərbaycan Yazıçılarının qurultayları ardıcıl olaraq keçirildi, milli ədəbi prosesə ictimai-siyasi dəyər verildi.

Bakıda və Naxçıvanda Cəlil Məmmədquluzadə, romantizm ədəbi cərəyanının nümayəndəsi Hüseyn Cavid kimi sənətkarların ev muzeyləri yaradıldı, maarifçi-realist Nəriman Nərimanovun ev muzeyi isə yenidən quruldu. Tarixi və ədəbi mənbələr bunu da göstərir ki, Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğu illərində də ədəbiyyatın, mədəniyyətin inkişafına daha böyük diqqət yetirilməyə başlandı. Bilirik ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsi 1982-ci ildə uzaq Sibirdən Vətənə gətirildi, doğma Naxçıvanda torpağa tapşırıldı. Doğru olaraq, 1981-ci ildə Heydər Əliyevin "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" imzaladığı Sərəncam ümumiyyətlə, 1937-ci il repressiya qurbanlarının bəraətinin təsdiqi sənədinə çevrildi. 16 mart 1994-cü ildə Heydər Əliyevin Fərmanı ilə dahi sənətkar Məhəmməd Füzulinin 500 illik yubileyi təntənəli surətdə qeyd olundu. Əlbəttə, M.Füzulinin yubileyinin dövlət səviyyəsində qeyd olunması şairin xatirəsinə dərin ehtiram və məhəbbətin ifadəsi idi. Bu fərman da Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinin, ədəbiyyatının, tarixinin dünyada təbliği və tərənnümünə xidmət edirdi. Bütün bunlar göstərir ki, Heydər Əliyevin vətəndaşlıq hissi, doğma Vətəninə, xalqına qayğısı, ədəbiyyatına, folkloruna bağlılığı onun ən ali keyfiyyətlərindən olub. Elmi mənbələr də sübut edir ki, hər bir millətin, xalqın varlığının əsas göstəricisi onun xalq ədəbiyyatıdır, folklorudur. Folklor haqqında ifadə olunmuş bu dəyərli fikir və faktlar yerinə düşür, ona görə ki, 2000-ci ilin aprelində xalqımızın böyük folklor abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının yazıya alınmasının 1300 illik yubileyi Bakıda böyük təntənə ilə qeyd olundu. Əlbəttə, bütün qeyd etdiklərimizlə bərabər, Nizami adına Ədəbiyyat İnstitutunun tərkibində kiçik bir şöbə kimi fəaliyyət göstərən Folklor şöbəsinin məhz Heydər Əliyevin xeyir-duası ilə ayrıca bir instituta çevrilməsi də Azərbaycan folklorşünaslıq elminin qorunmasına və inkişafına xidmət edirdi. Bunu akademik Muxtar İmanovun Türkologiya jurnalının 2017-ci il, 2-ci sayında çap olunmuş "Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" eposu" adlı tədqiqatı da göstərir. Akademik yazır ki, "1970-ci illərə qədər sovet rejiminin Azərbaycan folkloruna və folklorşünaslığına münasibəti xüsusi sərtliyi ilə seçilmişdir. 1930-cu illərdə folklorşünaslarımızdan bir çoxunun repressiya olunması dediyimiz sərt münasibəti sübut edən faktlardandır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk vaxtlardan folklora və folklorşünaslığa münasibət müsbət mənada dəyişmişdir. Bilirik ki, mədəniyyət tariximizdə Novruz bayramı kimi tarixi bir folklor abidəsi var. XX əsrə qədər təntənə ilə qeyd olunan bu bayram müstəqilliyimizi əldə edəndən sonra əsarətdən xilas oldu. Belə ki, Heydər Əliyevin 1993-cü ildə imzaladığı Sərəncamda Novruz bayramı dövlət səviyyəsində qeyd edilməyə başlandı. Bununla türklər tərəfindən müqəddəs sayılan, həyatımızın dörd vacib ünsürü olan od, su, yel, torpaq kultlarını birləşdirən bu folklor abidəsinin qorunmasında Ulu Öndər Heydər Əliyevin də böyük rolu oldu.

Azərbaycan xalqı əsrlər boyu bir sıra görkəmli tarixi müdrik şəxsiyyətlər, ədəbiyyat, incəsənət və elm xadimləri yetişdirmişdir. Onlar hər zaman öz elmləri, şəxsiyyətləri ilə Azərbaycanın adını hər yerdə uca etmiş, şərəflə yüksəltmişlər. Yuxarıda qeyd etdiyimiz tarixi faktlar bir daha sübut edir ki, Heydər Əliyev də məhz o şəxslərdən biri olub. Azərbaycan tarixində, ədəbiyyatında, eləcə də bütün sahələrdə Heydər Əliyevin xidmətlərindən danışmaqla bitmir. Çünki o, ömrü boyu xalqına xidmət etdi və həmişə müqəddəs amalına sadiq qaldı. Bütün deyilənləri bir sözlə ifadə edərdik ki, Heydər Əliyev Azərbaycanın dünəni, bu günü və sabahı oldu. Onun ideyaları, fikirləri ən dəyərli fikirlər kimi həmişə xalqımızın tarixində özünəməxsus yer tutacaqdır.